Mövcud proqram təminatları və sertifikatlaşdırılmış verifikatorlar simvolun keyfiyyətini 5 ballıq ümumi cədvəl üzrə təsnif edirlər: 0-4. 0-1 qiymətli simvollar keçilməz hesab edilir və istifadəyə yararsızdı. Ümumi qiymətdən başqa, verifikatorlar, ştrixkodun dekodlaşdırma qiymətini, sərhədlərin təzadlığını, ştrixkod simvolunun təzadlığını və kiçik çap səhvləri də daxil olmaqla, digər amilləri də göstərir.

Ştrixkodu aldıqdan və onun etiketini öz məhsulunuza həkk etdikdən sonra verifikasiya zərurəti yaranır. Ştrixkodunuzun poliqrafçılar tərəfindən yanlış və ya qeyri-dəqiq təsviri, məlumatı təhrik edərək, məlumatın oxunmasını, misal üçün, dükanın kassasında qeydiyyatdan keçirilərkən, mümkünsüz edəcək.

2008-ci ildən GS1 Azerbaijan cəmiyyəti bütün istifadəçilər üçün ştrixkodun verifikasiyası xidmətini həyata keçirir. Bu məqsədlər üçün AXICON 6500 Series verifikatorunun müasir modeli alınıb. Bütün məsləhətlər – pulsuzdu. Ştrixkod verifikatorları çap keyfiyyətini müəyyən etmək üçün silsilə yoxlamalar həyata keçirir və daha sonra, ştrixkodun oxunma keyfiyyətinə təsir edən əsas amilləri detallı şəkildə əks etdirən hesabat hazırlayırlar.

Ştrixkodun generasiyası və ya bağlamanın dizaynı zamanı, nəşriyyatda çap zamanı buraxılan səhvlər, yaxud da printerin termobaşlığında «döymə (döyülmüş, vurulmuş) nöqtə»nin əmələ gəlməsi – bunlar skanerin, bir məhsulun və ya məhsul partiyasının üzərindəki ştrixkodu nə üçün oxuya bilməməsi səbəblərinin tam siyahısı deyil. Verifikator məhsulun pərakəndə bağlamada buraxılmasını, ştrixkodun çap edilməsini və ya bağlamanın dizaynının yaradılmasını həyata keçirən hər bir şirkət üçün zəruri vəsaitdi.




EAN/UCC standartlarına uyğun kalibrovka xəritəsi